# “Ortaya fakt qoymasan, səndən şərəfsiz adam elə özünsən”



Tənzilə Rüstəmxanlı

## Tənzilə Rüstəmxanlıdan Turqut Ərə tutarlı cavab

**7 oktyabrda BMM-də keçirdiyimiz ”Azərbaycanın müstəqilliyinin 25 illiyinə həsr olunmuş bir tədbirə, əsasən ziyalılarımızı və mətbuatımızı dəvət etmişdik. Məqsədim sadəcə 18 Oktyabrın önəmini bir daha xatırlatmaq, gündəmə gətirmək, bu millətin müstəqilliyə qovuşmasında əməyi və haqqı olan hər kəsi minnətdarlıq hissi ilə anmaq idi. Yaxın tariximizdə baş vermiş bu önəmli hadisənin unudulmaması üçün gündəm yaratmaq və istiqlal aktına imza atan millət vəkillərinə təşəkkür etməkdən başqa bir məqsədimiz yox idi. Tədbirdə iştirak edən millət vəkilləri və ziyalılarımız da çıxışlarında bunu edirdilər.**

Millət vəkili Qüdrət Həsənquliyev öz çıxışında müstəqillik aktında imzası olan millət vəkillərinə ”İstiqlal” ordeninin verilməsini belə təklif etdi, Fazil Mustafa da o günün önəmini və o gün üçün mübarizə aparmış insanların millətin taleyində oynadığı rolu bir daha qeyd etdi. Millət Vəkili Fəzail İbrahimli Azərbaycanın müstəqilliyə gələn yolunun tarixi həqiqətlərindən, millətimizin azadlığa qovuşmaması üçün rus və ermənilərin işbirliyindən danışdı. O günlərin canlı şahidlərindən biri, Müstəqillik aktında imzası olan Firudin Cəlilov da bu günlərimiz üçün o zaman çəkilən çilələri, çətinlikləri, acıları və ağrıları anlatdı. Azadlıq hərəkatının liderlərindən biri Sabir Rüstəmxanlı da o günün qəhrəmanlarının bu gün yaşadıqları çətinlikləri dilə gətirdi. Bu çıxışlardan sonra söz istəyən Yasəmən Qaraqoyunluya çox böyük bir ehtiramla söz verdim. Yasəmən xanım sanki o tədbirdə olmayan birisi kimi, çıxışçıların heç birini dinləməmişdi, çox aqressiv bir şəkildə bizi ittiham etməyə başladı ki, bəs niyə bura Əli Kərimli, İsa Qəmbər dəvət olunmayıb?

Qüdrət Həsənquliyev lider olmayıb, (qeyd edim ki, Yasəmən xanım bunları Qüdrət bəy tədbirdən gedəndən sonra dedi) falan, filan. Yasəmən xanımın çıxışı tam bir təxribat xarakterliydi, tədbirin əhəmiyyətinə kölgə salmaq, ara qarışdırmaq, iş görmək əvəzinə söz oyunu etməkdən başqa bir şey deyildi. Mən xanımın çıxışına cavab vermək zorunda qaldım, kimsənin şəxsiyyətinə toxunmayacaq, alçaltmayacaq bir şəkildə fikirlərimi söylədim və ”sənin lider saydığın adamları mən lider saymıram” dedim. Xarici fondlardan maliyyə alaraq öz dövlətinə düşmənçilik edənləri tənqid etdim. ”Bəzən ermənidən daha betər düşmənçilik edənlərimiz var” dedim.

M.Ə. Rəsulzadənin də haqqı yeyilməməli, Əbülfəz Elçibəy də bu ölkənin prezidenti olub və milli Azadlıq hərəkatının liderlərindən biridir, onun da xidmətləri danılmamalı, Heydər Əliyev də, bu ölkənin prezidenti olub, ölkəni, bölünmə təhlükəsindən qoruyub, dövlət müstəqilliyimizi möhkəmləndirib, ona da haqsızlıq edilməməlidir. Mənim xanıma verdiyim cavabın mahiyyəti bundan ibarət idi. Yaxşı ki, kameranın yaddaşında tədbirdəki bütün çıxışlar olduğu kimi qalır.

İndi gələk iki gündən bəri sosial mediada, açılan birtərəfli müzakirələrə, təhqirlərə və yalanlara

Sanki biri düyməyə basdı ki, içinizdə nə qədər kin və nifrət, çirkab varsa, tökün bu ailənin üzərinə.

Birincisi, mənim kimi dəvət edib, kimi etməyəcəyim haqqında kimsənin önündə götürdüyüm bir öhdəliyim yoxdur və buna da borclu deyiləm. İkincisi, bu gün guya Əli Kərimlinin müdafiəsinə qalxaraq, məni təhqir edənlərə bir sualım var, 1999-cu ildə sizin bir çoxunuzun da təmsil olunduğunuz AXCP üzvlərinin bir çoxu onu və xanımı Samaranı təhqir edəndə, onu sizlərin şərindən, qorumaq üçün tədbir təşkil edərək, ”Ədalət Qılıncı” təqdim etmişdim. Əli Kərimlidən soruşun sizə söyləsin ki, o qılıncı ona kim təqdim etmişdi. Zaman o zaman idi ki, indi söydüyünüz iqtidarla Əli bəyin heç bir problemi yox idi, onu və ailəsini sizin əqidə yoldaşlarınız təhqir edirdi. Mən Tənzilə Rüstəmxanlı isə bir çox



təhqirləri gözə alaraq Əli Kərimliyə bir övladım kimi sahib çıxmışdım.

Demkonqres parçalananda təhqir etdiyiniz Sabir Rüstəmxanlı bir ata qayğısıyla onu qorumuşdu və buna görə yenə sizin əqidə dostlarınızın təhqirlərinə məruz qalmışdı. Nə acı ki, bu gün o, sizlərin məni təhqir etməsinə baxaraq əllərini ovuşdurur. Hər kəs əslində mahiyyətini ortaya qoyur. Tökün ətəyinizdəki daşları, yalanlarınız sadəcə öz ayağınıza dolaşar.

Mənə sual ünvanlayanlardan biri də Turqut Ərdir ki, Azərbaycanda 1992-ci ildən 2000-ci ilə qədər Türkiyəmizin səfirliyində mətbuat müşaviri olaraq çalışmış və sonra burdan göndərilib. Səbəbini özü bilir. Burda olduğu müddətdə bir və ya iki dəfə toplantılarda görüşmüşük. Ondan sonra onunla heç qarşılaşmamışam.

Turqut bəy, soyadın Er olunmasıyla Ər olunmaz!

Ərlik türk kültüründə qadına sayğıdan başlanır. Bizim kültürdə ər savaşına Ərənlərlə gedərdilər, yoxsa feys səhifələrinin arxasına gizlənənlərlə mənim işim olmaz. Mən yeddi cəddimi bilirəm və şəcərəmi də 15 il öncə ”Dumanda İtən Vətən” kitabında yayınlamışam. Yeddi göbək babalarım türk oğlu türkdür. Türk olmağımla hər zaman qürur duymuşam. Səni üzmək zorundayam. Soyumda, sopumda heç qanı qarışıq yoxdur. Məni bilənlər bilir ki, mən hər zaman sözümün əri olmuşam. Türk milliyətçisiyəm. Bu nə zamana, nə də məkana görə dəyişməz. Elçibəylə bağlı sözlərində də səmimi deyilsən. Əgər gerçəkdən Elçibəyi sevsəydin, illər uzunu onu söyən və ona xəyanət edən adamların sözçülüyünü yapmazdın. Elçibəyi özünə qalxan etmə, o bir türk böyüyüdür. Onda türk əxlaqı vardı. Mənə atdığın bu böhtanlara görə, sənin başına dünyanı dar edərdi. Mənim qohumlarımın kim olduğunu araşdırmadan öncə, bir öz soy kökünə bax. Gör orda erməni qarışığı varmı?

Azərbaycanda goreşənlik edəcəyinə, bax gör Türkiyədə türk soyundan olan nə qədər nazir, baş nazir və cumhurbaşqanı var. Bizdə dövlətin məqamlarına sayğılı olurlar, yoxsa ölkənin başında durmuş, ona xidmət göstərmiş və dünyasını dəyişmiş bir dövlət adamını sənin kimi söyüş söyüb təhqir etmirlər. İllərdir Azərbaycana düşmən mövqeyində durmusan. Kim Heydər Əliyevlə bağlı bir kəlmə yaxşı mənada söz söyləyibsə, elə bil sənin anana, arvadına söyür. Həmən iftira makinanı işə salırsan. Burdan sənə yüzlərlə qatı açılmamış söyüş göndərədim, amma bunu zəif və cahil adamlar edər. Bu, mənim işim deyil. Sənə burdan səslənirəm. Mənimlə bağlı irəli sürdüyün o ittihamları kanıtlayacak faktları ortaya qoymasan səndən şərəfsiz adam elə özünsən.

Heydər Əliyev Azərbaycanın prezidenti olub. Böyük dövlət adamı, ölkəmi təmsil edən atributlardan biridir. Əlbəttə, Türkiyədə və başqa yerlərdə sənin kimilərin onu təhqir etməsinə imkan verməmişəm. Çünki, mənim dövlət məqamına sayğım var və türk əxlaqından danışanın bunu bilməsi gərəkir. Qaldı ki, günlərdir, iftira maşınlarını işə salaraq öz çirkablarını bizə atmaq istəyən, sözdə ”bəy” və ”xanımlara”, onların da kim olduğunu öyrəndikdən sonra içim çox rahatladı.

Necə deyərlər, ”dinimə söyən müsəlman olsa bari”.

Avropada yaşayan və Əli Kərimlinin silahşorluğunu yapan jurnalistin, xanımının kaseti yayımlanıb. Məni söyən və mənə sus deyən xanımın isə kaseti sosial mediada dolaşırmış. Sizin əxlaq meyarınızın ölçüsü budurmu?

Avropaya sığınaraq, məni söyən ”vətənsevərlər” orda erməni və Ermənistanın Azərbaycanın Qarabağ torpaqlarının işğalı barədə bir yazınızdan, Xocalı soyqırımı ilə bağlı təşkil etdiyiniz bir konfransdan, erməni əsirliyində olan ananızın, bacınızın azad olunması üçün gördüyünüz bir işdən danışa bilərsinizmi?

Ölkə başçısı Avropa ölkələrinə rəsmi səfərdə olanda, ermənilərdən öncə onu protest edəcək mitinqlər təşkil etməkdirmi vətənpərvərlik? Bir erməni siyasətçisi, bir erməni alimi, qəzet yazarı göstərin ki, sizlər qədər dövlətini, millətini və onun qadınını aşağılasın. İllərdir ermənilərin Azərbaycana və türk xalqına etdikləri zülmlərə qarşı mübarizə aparıram. Ermənilər belə, sizin qədər bizi təhqir etmədilər. Üzüldüyüm bu deyil. Hər kəs düşüncəsinə görə əxlaq nümayiş etdirər. Məni üzən odur ki, bütün bu olayların başında duran siyasətçilər Azərbaycan iqtidarına iddialı olanlardır. İçinizi bürümüş bu kinlə, nifrətləmi Azərbaycanı idarə etməyi düşünürsünüz? Allah bu milləti o gündən qorusun. Qaldı ki, Yasəmən xanımın adını çəkdiyi liderlərə, konkret olaraq İsa Qəmbərə və onun şəxsiyyətinə, hər zaman hörmətlə yanaşmışam. Bunu hər kəsdən yaxşı o bilir. Yasəmən xanımın səmimiyyətinə şübhə etmirəm, o tam da başqa bir şey demək istəyirdi, olmadı. O düşündü ki, sağlam bir siyasi müzakirə aça bilər. Əminəm düşündü ki, bəlkə illər keçdikcə adlarını çəkdiyi adamlar, yaşa dolublar, olğunlaşıblar və onlarla hansısa bir masanın arxasında oturub, ölkə millət məsələsini müzakirə edə və ya siyasi polemikaya girə bilər. Amma o, daha bilmir ki, bu, mümkün deyil. Alim xanım haradan bilsin ki, müdafiə etdiyi cəbhənin insanları üçün müxtəlif fikirlərə, söz azadlığına yer yoxdur. Orda ”ya bizdən olacaqsan, ya da səni linc etmə kampaniyası başladacağıq” mühiti hökm sürür. Nə yazıq ki, Yasəmən xanım, zaman məni haqlı çıxartdı. Çoxları indi əllərini ovuşdura-ovuşdura gözləyir ki, mən Yasəmən xanım haqqında bir şeylər yazacam. Orda bir az durum! O, fikrini dedi, mən də cavabını verdim və məsələ bununla da bitdi. Nəinki, söz demək ona daş atanın başına, mən qaya tullayaram. Sizdən fərqli olaraq, mənim türk anasına sayğım sonsuzdur. Hələ ki bu, bir elm adamı ola.

Sonda onu demək istəyirəm ki, iftirayla, yalanla üzərimizə nə qədər gəlsəniz də, unutduğunuz bir şey daha var. Yalanın ömrü çox, həm də çox az olar. Gerçəklər gec-tez yerini tapacaq. Məni sevindirən bir o oldu ki, deməli, çox möhtəşəm bir konfransımız olub ki, bu qədər səs-küyə səbəb oldu. Deməli, yola davam...

Sizlər bizə ayaq bağı ola bilməzsiniz. Biz bu yola baş qoyanda sizləri və yalanlarınızı gözə almışdıq. Hər zaman dövlətimin və millətimin yolundayam, yanındayam. Allah bizi şeytanın şərindən uzaq eləsin. Sizləri isə inancınız varsa, Allaha həvalə edirəm. Namərd dostun olunca, mərd düşmənin olsa yaxşıdır.